# AZƏRBAYCAN RESPUBLİKASI

# DAXİLİ İŞLƏR NAZİRLİYİ

# POLİS AKADEMİYASI

**Elmi Şuranın 27 dekabr 2025-ci il**
**tarixli iclasının qərarı (protokol №2)**

## Elmi -Tədqiqat Strategiyası

**Bakı – 2025**

## Polis Akademiyası haqqında

Polis Akademiyası sıravi milis nəfərləri və komandir kadrları hazırlayan bir məktəb kimi 1921-ci ildə Azərbaycan Respublikasının Xalq Daxili İşlər Komissarlığının qərarı ilə təsis olunmuş, 1936-cı ilədək Bakı şəhərində fəaliyyət göstərmiş, 1936-cı ildən isə Mərdəkan qəsəbəsinə köçürülmüşdür. 1957-ci ildə Bakı Milis Məktəbi SSRİ DİN-in Bakı Xüsusi Orta Milis Məktəbinə çevrilmişdir.

O zaman təhsil müddəti iki il müəyyən edilərək məktəbi bitirənlərə orta təhsilli hüquqşünas diplomu verilirdi. 1957-1961-ci illərdə məktəb əyani, qiyabi şöbələr və təkmilləşdirmə kursları vasitəsilə Gürcüstan, Dağıstan, Kabarda-Balkariya, Altay, İrkutsk, Krasnodar, Kuybışev, Novosibirsk, Kemerovo, Saratov və onlarca başqa şəhərlər və respublikalar üçün peşəkar kadrlar hazırlayırdı.

Ümummilli lider Heydər Əliyevin Respublikaya rəhbərlik etdiyi dövrdə milis orqanlarına göstərdiyi qayğı və tələbkarlıq sayəsində Bakı Xüsusi Orta Milis Məktəbi və onun maddi-texniki bazası inkişaf etmiş, kadr cəhətdən möhkəmlənmiş və Akademiya səviyyəsinə qədər yüksəlmişdir.

Azərbaycan Respublikası Prezidentinin 23 may 1992-ci il tarixli 782 saylı Fərmanı və Nazirlər Kabinetinin 9 iyun 1992-ci il tarixli 321 saylı qərarına əsasən Bakı Xüsusi Orta Milis Məktəbi zəminində Polis Akademiyası yaradılmışdır. Qısa müddət ərzində Akademiyaya I dərəcəli ali təhsil müəssisəsi statusu verilmişdir.

## Ümumi müddəalar

Bu Strategiya Azərbaycan Respublikasının Konstitusiyasının, Azərbaycan Respublikasının "Təhsil haqqında" və “Elm haqqında" Qanunlarının, müvafiq normativ hüquqi aktların, Polis Akademiyasının Nizamnaməsinin və Elmi Şurasının qərarlarının müddəalarını rəhbər tutur.

**Akademiyanın missiyası:** Daxili İşlər Nazirliyi üçün fiziki və mənəvi cəhətdən sağlam və peşəkar kadrlar hazırlamaq.

**Gələcəyə baxışımız (vizyonumuz):** 2030-cu ilə qədər dünyanın polis hazırlığı sahəsində fəaliyyət göstərən ən azı 30 qabaqcıl təhsil müəssisəsi ilə əməkdaşlıq quraraq, beynəlxalq standartlara cavab verən, innovativ, əməkdaşlığa açıq olan xüsusi təyinatlı bir təhsil müəssisəsinə çevrilmək.

**Elmi-tədqiqat strategiyasının hədəfləri**

1. Tədqiqatçıların elmi-tədqiqat və innovasiya fəaliyyətinin inkişaf mexanizmlərini formalaşdırmaq;

2. Magistr və doktorantların elmi-tədqiqat bacarıqlarının çoxşaxəli istiqamətlərini müəyyən etmək;

3. Beynəlxalq və yerli elm və təhsil müəssisələri ilə əlaqələri genişləndirərək mövcud təcrübələri öyrənmək;

4. “Polis Akademiyasının Elmi Xəbərləri” elmi-hüquq jurnalının fəaliyyətinin təkmilləşdirilərək beynəlxalq elmmetrik bazalara çıxışını təşkil etmək;

5. İxtisaslı polis əməkdaşlarının hazırlanması məqsədilə təhsil proqramlarını müasirləşdirmək, təhsilverənlərin kompetensiyalarını artırmaq və bu istiqamətdə normativ və metodoloji strateji sənədləri hazırlamaq.

**1. Tədqiqatçıların elmi-tədqiqat və innovasiya fəaliyyətinin inkişaf mexanizmlərini formalaşdırmaq**

1.1. Tədqiqatçıların elmi-tədqiqat fəaliyyətinin stimullaşdırılması üçün mexanizmlərin hazırlanması;

1.2. Elmi-tədqiqatın hüquq profili və polisin fəaliyyəti üçün prioritet istiqamətlər üzrə koordinasiyalı formalaşdırılması;

1.3. Nəticəyönümlü elmi fəaliyyətin qiymətləndirilməsi üçün obyektiv meyarların müəyyən edilməsi;

1.4. Tədqiqatçıların ixtisas səviyyəsinin yüksəldilməsi və peşəkar kompetensiyalarının artırılması üçün metodoloji və praktik təlimlərin həyata keçirilməsi;

1.5. Elmi fəaliyyətin hüquqi və etik əsaslarının tənzimlənməsi istiqamətində tədqiqat prosesində şəffaflığın artırılması, plagiat hallarının qarşısının alınması və intellektual mülkiyyət hüquqlarının qorunması.

**2. Magistr və doktorantların elmi-tədqiqat bacarıqlarının çoxşaxəli istiqamətlərini müəyyən etmək**

2.1. Magistratura təhsili üzrə tədris planının yenilənməsi və təlim-tədris prosesinin tədqiqat əsaslı olmasının təmin edilməsi;

2.2. Magistr və doktorantların əmək bazarı ilə qarşılıqlı əlaqəsinin təhlil edilməsi və qiymətləndirilməsi;

2.3. Elmi-tədqiqat nəticələrinin təhsil və hüquq-mühafizə fəaliyyətində praktik tətbiq imkanlarını müəyyənləşdirən mexanizmin hazırlanması;

2.4. Akademik kommunikasiya və beynəlxalq əməkdaşlığın qurulması məqsədilə gənc tədqiqatçıların müxtəlif konfranslarda iştirak etməsi və dünya miqyaslı jurnallarda məqalələrinin dərc olunmasına şəratin yaradılması;

2.5. Tədqiqat mövzusunun əhəmiyyətinin müəyyənləşdirilməsi, hüquq ədəbiyyatının sistemli təhlili və elmi nəticələrin məntiqi əsaslarla formalaşdırılması nəticəsində analitik təfəkkür və yanaşmanın inkişaf etdirilməsi.

**3. Beynəlxalq və yerli elm və təhsil müəssisələri ilə əlaqələri genişləndirərək mövcud təcrübələri öyrənmək**

3.1. Tədqiqatçıların yerli və beynəlxalq elmi tədbirlərdə (konfrans, seminar və s.) iştirakının təşkil edilməsi;

3.2. Akademiya əməkdaşlarının hüquq-mühafizə orqanlarına hazırlığı həyata keçirən təhsil müəssisələrində magistratura və doktorantura səviyyəsi üzrə təhsil proqramlarına və təlimlərə cəlb olunması;

3.3. Əməkdaşlıq edilən yerli və xarici qurumların tədbirlərində (mühazirə, seminar, təlim, konfrans və s.) kursant heyətinin onlayn iştirakına şərait yaradılması;

3.4. Akademik və inzibati heyətin əməkdaşlıq edilən ölkələrin xüsusi təyinatlı təhsil müəssisələrində ixtisasartırma və təcrübə kurslarına cəlb edilməsi;

3.5. Xarici ölkələrin polis hazırlığı həyata keçirilən təhsil müəssisələri ilə birgə elmi konfransların həyata keçirilməsi.

**4. "Polis Akademiyasının Elmi Xəbərləri" elmi-hüquq jurnalının fəaliyyətinin təkmilləşdirilərək beynəlxalq elmmetrik bazalara çıxışını təşkil etmək**

4.1. Tədqiqatçıların beynəlxalq elmi bazalara çıxışının tənzimlənməsi;

4.2. "Polis Akademiyasının Elmi Xəbərləri" elmi-hüquq jurnalının fəaliyyətinin beynəlxalq elmmetrik bazaların tələbləri əsasında təkmilləşdirilməsi;

4.3. Kitabxananın fəaliyyətinin optimallaşdırılması və beynəlxalq elmmetrik bazalara çıxışın əldə edilməsi;

4.4. Elektron kitabxana sisteminin genişləndirilməsi, elektron bazada tədris vəsaitlərinin və tədqiqat işlərinin yerləşdirilməsi;

4.5. Tədqiqat materiallarının nüfuzlu elmi jurnallarda nəşr olunması üçün imkanların yaradılması.

**5. İxtisaslı polis əməkdaşlarının hazırlanması məqsədilə təhsil proqramlarını müasirləşdirmək, təhsilverənlərin kompetensiyalarını artırmaq və bu istiqamətdə normativ və metodoloji strateji sənədləri hazırlamaq**

5.1. İnnovativ tədris texnologiyaları, müasir tələblərə cavab verən laboratoriyalar və interaktiv metodlardan istifadə etməklə tədrisin effektivliyinin artırılması;

5.2. Təhsilverənlərin elmi-metodiki və peşəkar bacarıqlarının artırılması üçün treninqlərin keçirilməsi və beynəlxalq təcrübədən istifadə edilməsi;

5.3. Strateji sənədlərin beynəlxalq və yerli tələblərə uyğun hazırlanmasına əsasən təlim-tədris prosesinin inkişaf etdirilməsi;

5.4. Tərtib edilmiş strateji, normativ və konseptual sənədlərin praktik fəaliyyət müstəvisində icraya yönəldilməsi;

5.5. Tədris prosesinin elmi əsaslarla analizi və müasir pedaqoji yanaşmaların tətbiqi üçün institusional potensialın gücləndirilməsi.